Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Prezidenti cənab Rövnəq Abdullayevə

**İnformasiya sorğusu**

**Sorğu verən: Xalid Vahidoğlu**
**Tel/faks: 539-19-051**
**e-mail: xalidvahidoglu@gmail.com**
**Tarix: 29 may 2014**

**Hörmətli Rövnəq müəllim!**

Aşağıdakı suallarımızın cavablandırılmasını Sizdən xahiş edirik!
1) Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun xarici ölkələrdəki nümayəndəlikləri sosial layihələri və tədbirləri maliyyələşdirərkən hansı amillərə üstünlük verir?
2) Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun xarici ölkələrdəki nümayəndəlikləri 2013-cü ildə və 2014-cü ilin I rübündə sosial layihələrin maliyyələşdirilməsinə nə qədər vəsait xərcləyib?
3) Türkiyədə təsis olunan Azərbaycan Eyitim, Kültür ve Yardımlaşma Derneyi (AzeDER) tərəfindən keçirilən aşağıdakı tədbirlərin hər birinə SOCAR və onun xarici ölkələrdəki nümayəndəlikləri tərəfindən nə qədər vəsait ayrılıb?

A) 2013-cü ilin iyununda Türkiyədə keçirilən «Türkiyədə təhsil alan azərbaycanlı məzunlar üçün ziyafət» (400 nəfər iştirakçı);
B) 2013-cü ilin oktyabrda Türkiyədə keçirilən «İstanbulda təhsil alan azərbaycanlı tələbələr üçün Qurban Bayramı yeməyi»;
V) 2013-cü ilin oktyabrında Praqa şəhərində keçirilən «Muğam və klassik simfoniya musiqisinin sintezindən ibarət "The Flower of Fire" adlı konsert»;
C) 2013-cü ilin dekabrında Türkiyədə keçirilən «Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və yeni il şənliyi» (350 nəfər iştirakçı);
Ç) 2013-cü ilin martında Türkiyədə keçirilən Novruz bayramı şənliyi.

3) Rəşad Rövnəq oğlu Abdullayev «SOCAR Trading S.A.»da hansı müddətdə və hansı vəzifədə çalışıb?

Məlumat üçün bildirim ki, bu məsələ ilə bağlı 17 fevral 2014-cü ildə Satınalmalar üzrə Dövlət Agentliyinə informasiya sorğusu göndərmişik. İnformasiya sorğusuna Satınalmalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Ələkbər Quliyevin imzası ilə verilən 28 fevral 2014-cü il tarixli 82 saylı cavabda yuxarıda göstərdiyimiz sualların cavabını "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətindən almağımız tövsiyyə edilib. Bu səbəbdən yuxarıda göstərdiyimiz suallarımıza cavab verilməsini xahiş edirik.

Məlumat üçün bildirmək istərdim ki, «İnformasiya əldə etmək haqqında» qanunun 2.1-ci maddəsinə görə Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır.

«İnformasiya əldə etmək haqqında» qanunun 10.1-ci maddəsində informasiya sahibinin öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamıya bərabər şərtlərlə informasiya əldə etmək hüququnu təmin etməsi nəzərdə tutulur.

«İnformasiya əldə etmək haqqında» qanunun 21.3.-cü maddəsinə əsasən, informasiya sorğusunun təmin edilməsindən imtina barədə cavab Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq maddələri də göstərilməklə, aydın və əsaslandırılmış şəkildə tərtib edilməli, həmçinin burada sorğuçunun cavabdan məhkəməyə şikayət etmək hüququnun olduğu öz əksini tapmalıdır.

«İnformasiya əldə etmək haqqında» qanunun 24.1-ci maddəsinə əsasən informasiya sorğusu ə... qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir.

«İnformasiya əldə etmək haqqında» qanunun 49.1-ci maddəsinə əsasən sorğuçu sorğunu... icrasından imtina edilməsi, yaxud lazımınca icra olunmaması barədə məhkəməyə və ya Müvəkk... şikayət etmək hüququna malikdir.

**Əvvəlcədən təşəkkürümü bildirirəm!**